# Tərcümeyi hal

Mən Qasımov Əjdər Yusub oğlu 1957-ci il aprel ayının 27-də Gürcüstan Respublikası Bolnisi rayonunun Faxralı kəndində anadan olmuşam.1964-cü ildə Faxralı kənd orta məktəbinin 1-ci sinfinə getmişəm.1974-cü ildə həmin məktəbin 10-cu sinfini bitirmişəm.1975-1977-ci illərdə Almaniya Demokratik Respublikasında Sovet Ordusu sıralarında həqiqi hərbi xidmətdə olmuşam.Hərbi xidmətdən sonra Bakı şəhərində İxtisaslaşdırılmış avtomobillər(БЗСА) zavodunda fəhlə işləmişəm.1981-ci ildə istehsalatdan ayrılmadan Çingiz İldırım adına Azərbaycan Politexnik İnstutunun hazırlıq fakultəsinə dinləyici kimi daxil olmuşam.1982-ci ildə buraxılış imtahanlarını müvəffəqiyyətlə verərək həmin instutun Avtomatika fakultəsinin əyani şöbəsinə daxil olmuşam.1987-ci ildə həmin kursu tam bitirib Mühəndis elektromexanik ixtisası üzrə ali təhsil diplomu alıb təyinatla Gəncə Avtomobil zavodunda əmək fəaliyyətinə başlamışam.Torpaqlarımız erməni işğalına məruz qaldığı bir vaxtda yəni 1993-cü ilin sonlarında məndə silaha sarılaraq Murovdağ uğrunda gedən döyüş əməliyyatlarında iştirak etmişəm.Ömər,Cabir,Təbriz,Camış yüksəklikləri uğrunda gedən döyüşlərin iştirakçısı olmuşam.Döyüş gözləmə mövqeyində döyüş tapşırığını yerinə yetirən zaman hər iki ayaq barmaqlarımı 1-2-ci dərəcəli don vurmuşdur.Dəfələrlə kamandanlıq tərəfindən Fəxri fərmanlar,təşəkkürnamələr və Şah İsmayıl Xətai adına fəxri fərmanla təltif olunmuşam.1996-cı ilin sonlarında ordudan tərxis olunmuşam.1997-2010-cu illərdə Gəncə Gil Torpaq İstehsalat birliyində mühəndis vəzifəsində işləmişəm.1910-cu ildən “Azərsu” ASC-nin Gəncə sukanal Törəmə Səhmdar cəmiyyətində Baş mexanik vəzifəsində işləyirəm.Ailəliyəm.İki övladım bir oğlum və bir qızım var.Ehtiyatda olan baş leytenantam.Birinci Qarabağ müharibəsi veteranıyam.

Əjdər Qasımov

Azərbaycan Respublikası
Müdafiə Nazirliyi
Министерство Обороны
Азербайджанской Республики
HƏRBİ HİSSƏ
№ 172
ВОИНСКАЯ ЧАСТЬ

# ARAYIŞ

yaralanmanın (travmanın, kontuziyanın, xəsarətin)
alınma şəraiti haqqında

NS: baş l-t
11. 02. 200 Qasımov Əjdər Yusif oğlu 27.04.1957
(hərbi rütbəsi, soyadı, atasının adı, təvəllüdü)

«12» 11 ~~200~~ 1995 -ci il.

Döyüş gözləmə mövqeyində olarkən
(yaralanmanın (travmanın, kontuziyanın, xəsarətin) alınma şəraiti və onun lokaliziyasiyası göstərilməlidir)
„Hər iki ayaq barmaqlarının I-II dərəcəli donvurması

Yaralanma (trabma, xəsarət, kontuziya) alınmışdır:
~~döyüş tapşırığını yerinə yetirərkən~~; hərbi xidmət vəzifəsini yerinə yetirərkən; ~~şəxsi ehtiyyatsızlığı və səhlənkarlığı; hərbi xidmət vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar olmayan bədbəxt hadisə nəticəsində~~ (lazım olmayanın üstündən xətt çəkilməlidir)

UHK-na
(arayışın təqdim edildiyi müəssisənin, təşkilatın adı)

təqdim edilmək üçün verilmişdir.

Komandir (rəis) p-k-l-t [signature] İbrahimov
(hərbi rütbəsi, imzası, soyadı, inisialları)

M.Y.

ВОИНСКАЯ ЧАСТЬ № 172 HƏRBİ HİSSƏ

ВӘТӘН ТОРПАГЛАРЫНЫ ИШҒАЛЧЫЛАРДАН АЗАД ЕДӘК!

# ФӘХРИ ФӘРМАН

МУРОВДАҒ ДӨЈҮШ БӨЛКӘСИНДӘКИ ШӘХСИ ДӨЈҮШ
НАИЛИЈЈӘТЛӘРИНӘ ВӘ НОВРУЗ БАЈРАМЫ МҮНАСИБӘТИЛӘ
ӘЛАГӘДАР ОЛАРАГ БАШ ЛЕЈТЕНАНТ ГАСЫМОВ ӘЖДӘР
ЈУСИФ ОҒЛУ ФӘХРИ ФӘРМАНЛА ТӘЛТИФ ЕДИЛСИН.

172 сајлы һәрби һиссәнин командири
полковник: Ф.М.Ҹәбрајылов

172 сајлы һәрби һиссәнин командиринин
шәхси һеј'әтлә иш үзрә мүавини
полковник-лејтенант: М.Ә.Сәлимов

М.Ј. «21» март 1995-чи ил

ВӘТӘН ТОРПАГЛАРЫНЫ ИШҒАЛЧЫЛАРДАН АЗАД ЕДӘК!

# ФӘХРИ ФӘРМАН

Баш лејтенант ГАСЫМОВ ӘЖДӘР ЈУСИФ ОҒЛУ

28 Мај Азәрбајҹан Демократик Республикасынын

јаранмасы күнү мүнасибәти илә вә хидмәти

борҹуну лајигинҹә јеринә јетирдијинә көрә

тәлтиф едилсин

172 сајлы һәрби һиссәнин командири
полковник: Ф.М.Ҹәбрајылов

172 сајлы һәрби һиссәнин командиринин
шәхси һеј'әтлә иш үзрә мүавини
полковник-лејтенант: И.һ.ИСМАЈЫЛОВ

М.Ј. «28» МАЈ 1995-ҹи ил

Bir kərə yüksələn bayraq, bir daha enməz




ADINA

# Fəxri Fərman

баш лејтенант ГАСЫМОВ Әждәр Јусиф оғлу

Јуксәк һәрби һазырлығына, әскәри низам-интизамына көрә вә 172 N-ли һәрби һиссәнин јаранмасынын илдуму мунасибәти илә ШАҺ ИСМАЈЫЛ ХӘТАИ АДЫНА ФӘХРИ ФӘРМАНЛА ТӘЛТИФ олунур.

АЗӘРБАЈЧАН РЕСПУБЛИКАСЫНЫН МУДАФИЈӘ НАЗИРИ

кенерал-лејтенант М.МӘММӘДОВ

# ТӘШӘККҮРНАМӘ

Ҹәнаб баш л-т Гасымов Әждәр Јусиф оғлу

Сиз бир илдир ки, һәрби һиссәмизин тәркибиндә торпагларымызын мүдафиәси, дүшмәнләрдән азад едилмәси вә мүстәгил Азәрбајҹанымызын әрази бүтөвлүјүнүн горунмасы, дөвләтчилијимизин мөһкәмләндирилмәси наминә Вәтән гаршысында өз мүгәддәс әскәри борҹунузу шәрәф вә виҹданла јеринә јетирирсиниз.

Һәрби һиссәнин јаранмасынын бириңҹи илдөнүмү мүнасибәтилә Сизә тәшәккүр едир, әмин олдуғумузу билдиририк ки, иҹдијиниз анда бундан сонра да садиг галаҹаг, дөјүш салнамәмизә парлаг вә рәшадәтли сәһифәләр јазаҹагсыныз.

**172 сајлы һәрби һиссәнин командири**
**полковник:** **Ф.М.Ҹәбрајылов**

**172 сајлы һәрби һиссәнин командиринин**
**шәхси һеј'әтлә иш үзрә мүавини**
**полковник-лејтенант:** **М.Ә.Сәлимов**

**12 Апрел 1995-ҹи ил**
**Муровдағ**

Gəncə şəhəri Nizami rayon hərbi komissarlığı
(vəsiqəni verən müəssisə)

**VƏSİQƏ M/V No: 008215**



M. Y.

Soyadı Qasımov

Adı Əjdər

Atasının adı Yusub o

Şəxsi imza

Vəsiqənin sahibi müharibə veteranları üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş güzəşt və imtiyazlardan istifadə etmək hüququna malikdir.

Vəsiqə müddətsizdir və Azərbaycan Respublikası ərazisində qüvvədədir.

Verildiyi tarix „23" mart 1998 il

polkovnik Tapiyev
(müəssisə rəhbərliyinin imzası)

M. Y.

58-02-84